# HEYDƏR ƏLİYEVİN

## *Akademik İsa Həbibbəylinin tədqiqatlarında*



*Salatın ƏHMƏDLİ,*
*dosent*

*(Əvvəli ötən saylarımızda)*

İctimai mühitdə azərbaycançılığın ilk şəfəqlərinin milli teatrdan və Mirzə Fətəli Axundzadənin əsərləri əsasında hazırlanmış tamaşalardan doğması, Həsən bəy Zərdabinin nəşr etdirdiyi «Əkinçi» qəzetinin azərbaycançılığın səmasında doğan günəş olduğu qeyd edilməklə yanaşı, İsa Həbibbəyli bu faktı da qeyd edir ki, doğrudur, «Əkinçi»də Azərbaycan, yaxud azərbaycanlı kəlmələri işlədilməmişdi. Həsən bəy Zərdabi «Əkinçi» qəzetini «müsəlmanlar üçün» nəşr etdirdiyini bəyan etmişdi. Bununla belə, «Əkinçi»dəki yazı tərzi, ifadə üslubu xalq danışıq dilinə çox yaxın idi. Həsən bəy Zərdabinin və qəzetin ətrafında toplaşanların, əsasən, savadlı, universitet təhsilli ziyalılar olması qəzetin yazı üslubuna müəyyən elmilik elementləri gətirmişdi. Ancaq yenə də «Əkinçi»ni sıravi müsəlman qardaşların diqqətinə çatdırmaq, «xalqı qəzet oxumağa adət etdirmək» əsas məqsəd olduğu üçün qəzetdə mümkün qədər sadə, asan, başa düşünülən ana dilində yazı-pozuya üstünlük verilirdi".

Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında formalaşmış yeni azərbaycanlı maarifçi nəslin "azərbaycançılığın real daşıyıcılarına" çevrildiyini, bu prosesin Avropa və Rusiyada ali təhsil alan, ölkəyə qayıtmış maarifçi ziyalıların hesabına daha da yetkinləşdiyini, «Vətən dili» adlı ilk dərsliyin meydana çıxması (1881) ölkənin və millətin konkret adının müəyyən edilməsi məsələsini daha da yaxınlaşdırdığını, artıq hansı Vətən, kimin Vətəni, haradır Vətən suallarının meydanda olduğunu və real cavabın axtarılmasını tələb etdiyini, "mövcud elmi ədəbiyyatda azərbaycanlı mənasında «Azərbaycan milləti» kəlməsinin mətbuatda ilk dəfə «Kəşkül» qəzetində işlədildiyi"nin öz əksini tapdığını yazır: "Tədqiqatçılar bu məqamda 16 noyabr 1890-cı ildə «Kəşkül» qəzetində «Azərbaycanlı» imzası ilə çap olunmuş «Əvam gəzmək - yuxu yatmaqmı dedin» adlı məqalədə birinci dəfə «Azərbaycan milləti» ifadəsinin işlədildiyini qeyd etmişlər. Apardığımız axtarışlar isə «azərbaycanlı» sözünün «Kəşkül»dən səkkiz il qabaq, hələ 1882-ci ildə Məhəmmədağa Şahtaxtlı (1846-1931) tərəfindən işlədildiyini göstərir. Məhəmmədağa Şahtaxtlı Tiflisdə nəşr olunan «Qafqaz» qəzetinin 7 aprel 1882-ci il tarixli sayında çap edilən «Müsəlmanlarda məktəb həyatı» adlı məqaləsində yazmışdı: «Bizi necə adlandırmalı? Dilimizdən söz düşəndə biz onu türk dili adlandırırıq... Qonşularımız farslar və ermənilər də bizi türk adlandırırlar. Bu baxımdan bizi ümumi qəbul edilmiş ad kimi türk adlandırmaq olardı. Ancaq ruslar bunu qəbul etməyə bilərlər. Çünki bütün Avropa xalqları kimi onlar da bizləri tanıyana qədər osmanlı türklərini belə adlandırmağa adət etmişlər. Tatar adını biz qəbul etmək istəmirik. Belə ki, həmin söz bizi aşağılamaq üçün işlədilir. Olmazmı ki, milli mənsubiyyətimizi müəyyən etmək üçün xalqımızın adını etnoqrafiyada və danışıq dilində işlədildiyi kimi azərbaycanlı adlandıraq? Ola bilsin ki, nə vaxtsa ədəbiyyatda da, rəsmi dairələrdə də bu ad qəbul ediləcəkdir. Hələlik isə... biz İranda və müsəlman Zaqafqaziyasında yaşayan azərbaycanlıları müsəlman adlandırırlar. Müsəlman sözü... bütün dünya müsəlmanlarına deyil, Azərbaycan türklərinə, Zaqafqaziya və İran tatarlarına aid edilir».

Azərbaycançılıq anlayışının daha da möhkəmləndirilməsi baxımından Məhəmmədağa Şahtaxtlının 1891-ci ildə «Kaspi» qəzetində çap edilmiş «Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı» məqaləsinin mühüm əhəmiyyətə malik olduğunu söyləyən İ.Həbibbəyli Məhəmmədağa Şahtaxtlının fikirlərini («Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onun dilini isə Azərbaycan dili adlandırmaq məqsədəuyğun sayılmalıdır") yada salır.

«Kəşkül» qəzetinin 16 noyabr 1890-cı il tarixli sayında «Azərbaycanlı» imzası ilə çap edilmiş «Əvam gəzmək - yuxu yatmaqmı dedin» adlı məqalənin isə ana dilində milli mətbuatda «Azərbaycan milləti» ifadəsinin işlədildiyi ilk məqalə olduğunu yazır. Məqalədə deyilirdi: «Şələpapaq başımda, qalın yapıncı çiynimdə, arşın yarım xəncər budumda durmuşdum Tiflis vağzalında... Hər millət desən tapılardı... Hər dil desən danışırdılar...Birdən keçisaqqal əcnəbi təmiz türk dili ilə məndən soruşdu:

- ... Siz nə millətdənsiniz?

-Müsəlmanam.

-Xeyr, mən soruşuram nə millətdənsiniz?

-Müsəlmanam, - deyirəm.

-Əfəndim, millət ayrı, din ayrı.

-...Ancaq eyb də olsa, gərək dürüst ərz edəm. Mən bilmirəm ki, nə millətdənəm...

-...Siz o millət deyilsiniz ki, ruslar sizə tatar deyirlər?

-Bəli...

-Hə, indi bildim siz nə millətsiniz. Siz tatar deyilsiniz... Tatar Krımda, Kazanda olan müsəlmanlardır. Sizin millət Azərbaycandır»

İsa Həbibbəyli mətbuatda, publisistikada azərbaycançılıq ideyası böyük demokrat ədib Cəlil Məmmədquluzadənin 27 noyabr 1917-ci il tarixində "Molla Nəsrəddin" jurnalında çıxan məşhur "Azərbaycan" məqaləsi ilə daha da yetkinləşdiyi, "Azərbaycan" məqaləsi ölkəmiz, dilimiz və millətimiz haqqında böyük vətəndaşlıq yanğısı ilə ifadə olunmuş həyəcanlı ürək çırpıntılarının təbii səslənən əks-sədasıdır" fikrindədir.

Cəlil Məmmədquluzadə "Azərbaycan" məqaləsində yazır: "Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm... Özümdən soruşuram ki:

- Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zəhrabanu bacı idi.

- Dilim nə dilidir?

- Azərbaycan dilidir.

- Yəni Vətənim haradır?

- Azərbaycan vilayətidir».

Cəlil Məmmədquluzadənin (1869-1932) XX əsrin əvvəllərində, 1920-ci ildə qələmə aldığı «Anamın kitabı» dramını ədəbiyyat baxımından azərbaycançılığın "tale kitabı"adlandıran İsa Həbibbəyli qeyd edir ki, bütün bunlara baxmayaraq, XIX əsrinaxırları və XX əsrin əvvəllərində, ölkəmizdə qəzet və ya kitab oxuyan əhalinin çox az olduğunu nəzərə alsaq, bu ideyaların hələlik informasiya şəklində müəyyən qrup ziyalılar arasında yayıldığı qənaətinə gəlmiş olabilərik. Keçmiş sovet hakimiyyəti illərində isə ədəbiyyatda Azərbaycan, əsasən, tərənnüm olunmuş, milli ideya kimi -

-

yaşadılsa da bolşevik rejiminin təsiri ilə bu ideyanın azərbaycançılıq səviyyəsinə çatdırılmasına imkan verilməmişdir. Bütün bunlara görə ölkəmizdə azərbaycançılığın mətbuatdan və ədəbiyyatdan ictimai-siyasi müstəviyə çıxarılması kimi çətin və şərəfli vəzifənin həlli görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olan tarixi xidmətdir". Məhz ümummilli lider Heydər Əliyev yaşadığı dövrün siyasi quruluşunun sərt qadağalarına baxmayaraq, Azərbaycan anlayışına geniş müstəvidə baxışlar sistemini formalaşdırmışdır. Heydər Əliyevin simasında tariximizdə ilk dəfə olaraq Azərbaycan məsələsinə dövlət səviyyəsində kompleks şəkildə yanaşılmış, problemə ardıcıl siyasi münasibət bəslənilmiş və konkret nəticələr əldə olunmuşdur".

Azərbaycançılığın dövlət ideologiyası səviyyəsində formalaşdırılmasının və təsdiq edilməsinin, qəbul olunmasının Heydər Əliyevin "müstəqil dövlətçilik uğrunda mübarizəsinin əsas ana xətlərindən birini" təşkil etdiyini bildirən İsa Həbibbəyli Heydər Əliyevin azərbaycançılıq siyasətini özünün çoxcəhətli fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürdüyünü, bu ideologiyanın xalqın milli şüurunda və dövlətçilik təfəkküründə inkişaf etdirilib möhkəmləndirilməsi işini "həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə" çevirdiyini yazır: "Məhz Heydər Əliyevin çoxcəhətli və ardıcıl siyasəti nəticəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə milli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdır. Qeyd etdiyimiz kimi, Heydər Əliyev çoxillik siyasi fəaliyyətinin bütün dövrlərində azərbaycançılıq məsələsini ən ali məqsəd hesab etmişdir. Tarixin verdiyi şansların, yaratdığı imkanların hamısında bu böyük dövlət xadimi özünü Azərbaycana həsr etmiş, Azərbaycan idealı uğrunda daim dönmədən mübarizə aparmışdır".

Onun Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə başçılıq etdiyi illərdə və sovet hakimiyyəti zamanı ölkəmizə rəhbərliyinin birinci dövründə böyük gələcək ümidi ilə milli dövlətçilik naminə həyata keçirdiyi geniş- miqyaslı siyasi-ideoloji, iqtisadi-mədəni, ədəbi-tarixi tədbirlər sonrakı mərhələdə qazanılmış dövlət müstəqilliyinin möhkəm təməlini, etibarlı bünövrəsini təşkil etdiyini bildirən alim tarixi məqamlara üz tutur, orta əsrlərdə Səfəvilərin hakimiyyəti illərində azərbaycançılıq amilinin dövlət siyasətinin bütün istiqamətlərini deyil, müəyyən sahələrini əhatə edə bildiyini, Azərbaycan xanlıqları dövründə də ölkə parçalandığı üçün vahid milli siyasətin həyata keçirilə bilmədiyini, Rusiyanın işğalından sonra ölkədə ümumi maarifçilik sahəsində müəyyən irəliləyişlər olsa da siyasi proseslərdə azərbaycançılığın pərdə arxasına keçirildiyini, milli faktorların imperiya maraqlarının içərisində əridildiyini bildirir. Analoji siyasətin Sovet dövründə də davam etdirildiyini, Azərbaycan Demokratik Cümhuriyyətinin isə ömrü qısa olduğu üçün həmin mürəkkəb tarixi mərhələdə azərbaycançılıq istiqamətində qaldırılan təşəbbüslərin yarımçıq qaldığını qabardan İsa Həbibbəyli bildirir ki, "bütün bunlara əsasən qətiyyətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində Heydər Əliyev qədər uzun müddət və ardıcıl şəkildə azərbaycançılıq siyasəti ilə məşğul olan ikinci bir dövlət xadimi olmamışdır. Azərbaycan SSR-in Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyindəki fəaliyyətini də nəzərə alsaq, Heydər Əliyev qırx ildən artıq böyük bir dövrdə azərbaycançılıq ideyası ilə dövlət işi səviyyəsində məşğul olmuşdur. Sovetlər İttifaqının rəhbərliyi ilə anlaşıqlı münasibətlər qurmağı bacarmış Heydər Əliyevin Azərbaycanı geridə qalmış aqrar respublikadan hərtərəfli inkişaf etmiş bir ölkəyə çevirməsi mühüm tarixi hadisədir. Eyni zamanda, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilini ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması da misilsiz tarixi hadisələrdən biridir. Nəzərə almaq lazımdır ki, həmin dövrdə nəinki Orta Asiya respublikalarında, heç Siyasi Büroda böyük təmsilçiləri olan Ukraynada da xalqın dili dövlət dili səviyyəsinə çatdırıla bilməmişdi".

"Buna görə də Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsidir. Azərbaycan dilinin sovet hakimiyyəti dövründə dövlət dili statusu qazanması Azərbaycan Respublikasının gələcək müstəqilliyinin mühüm təminatlarından biri idi", - deyən İsa Həbibbəyli bu hadisəni "Heydər Əliyevin dövlət xadimi olaraq hələ sovet hakimiyyəti illərindəki azərbaycançılıq idealının açıq və parlaq təzahürü və böyük qələbəsi" kimi qiymətləndirir: "Bu yolla Heydər Əliyev keçmiş sovet rejimi dövründə bütün çətinliklərə baxmayaraq, ölkəmizdə milli istiqlal düşüncəsinin əsaslarını formalaşdırmaq kimi məsuliyyətli və şərəfli bir vəzifəni böyük bacarıqla həyata keçirmişdir". Sovet rejimindən narazı olan milli istiqlalçıların-Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun, xalq yazıçısı Mirzə İbrahimovun, böyük vətəndaş alim Abbas Zamanovun, xalq şairləri Bəxtiyar

# DÖVLƏTÇİLİK TƏLİMİ

Vahabzadənin, Xəlil Rzanın və başqalarının həyatında mühüm rol oynadığını, onların böyük dayağı olduğunu bildirən alim, XX əsrin 70-80-ci illərində baş verən əsas siyasi-iqtisadi, elmi-mədəni hadisələri yenidən təhlil edərkən görünən və görünməyən bütün proseslərin alt qatında, fəlsəfəsində, mahiyyətində millilik amilinin, müstəqillik düşüncəsinin, milli dövlətçilik təfəkkürünün varlığını, mövcudluğunu çox aydınlıqla görmək olduğu qənaətini söyləyir: "Lakin ən böyük dahilik çətin ideoloji məhdudiyyətlər mühitində həmin prosesləri yaşayıb-hazırlayıb həyata keçirərkən böyük gələcəyi görmək istedadına malik olmaqdan ibarət idi. Heydər Əliyev dövlətçilikdə qeyri-adi müdriklik və uzaqgörənlik istedadına malik olan qüdrətli liderdir. Bu böyük dövlət xadiminin müdriklik və uzaqgörənliyinin hərəkətverici qüvvəsi vətənə, xalqa, doğma torpağa sonsuz inam və məhəbbətdən və sınaqlardan çıxmış böyük siyasi təcrübədən yoğrulmuşdur. Heydər Əliyev keçdiyi çətin və şərəfli yolla Sovetlər İttifaqında beynəlmiləlçi ideologiyanın sərt dövlətçilik prinsipi kimi qəbul edildiyi dövrlərdə vətənpərvər dövlət xadimi olub, Kremlin zirvəsinə qədər yüksəlməyin mümkünlüyünü isbat etmişdir".

Azərbaycanda Sovetlər İttifaqının ən sərt dövrlərində Heydər Əliyevin özünəməxsus bir siyasətlə azərbaycançılıq istiqamətində həyata keçirdiyi böyük tədbirlərin gələcək dövlət müstəqilliyinin təməllərinə çevrildiyini, onun uzaqgörən bir dövlət xadimi olaraq çökmüş sovet ideologiyasından yeni müstəqil dövlətçilik siyasətinə keçməsinə heç bir çətinlik yarada bilmədiyini, keçmiş sovet dövlətinin rəhbərlərindən fərqli olaraq, tarixdə qaldığını, Heydər Əliyevin portretləri milli azadlıq hərəkatının bayraqları ilə birlikdə meydanlarda yüksəklərə qaldırıldığını bildirən İsa Həbibbəylinin gəldiyi qənaəti budur ki, "deməli, Azərbaycanda xalq hərəkatı, milli azadlıq mübarizəsi böyük dövlət xadimi Heydər Əliyevin böyük azərbaycançılıq ideallarından keçib gəlməşdi. Bu mənada Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik qazanmış gənc respublikaların demək olar ki, mütləq əksəriyyətinin rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev xüsusi bir «keçid dövrü» yaşamamışdır. Əksinə, Azərbaycan üçün Heydər Əliyev epoxasının birinci mərhələsi sovet sosialist sistemindən müstəqil dövlətçilik erasına keçid dövrü xarakteri daşımışdır. Milli ideologiyanın formalaşdırılması baxımından digər keçmiş sovet respublikalarının müstəqilliyin ilk illərində üzləşdikləri çətinlikləri uzaq görən dövlət xadimi Heydər Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində Azərbaycan xalqı müstəqil dövlətçiliyi qazanana qədər yaşamışdı. Ona görə də müstəqillik dövrünün başlanğıcının Heydər Əliyevsiz keçən ilk illərinin yaratdığı mürəkkəbliyə və törətdiyi böyük çətinliklərə baxmayaraq, xalqın tələbi ilə yenidən rəhbərliyə qayıtmış Heydər Əliyevin qüdrətinin işığında Azərbaycanda keçid prosesləri sürətlə getmiş, zaman etibarilə qısa bir müddətdən sonra ölkəmizdə müstəqil dövlət quruculuğu öz təbii, qanunauyğun məcrasına salınmışdır".

Azərbaycanın müstəqillik dövrünün də vəzifələrini görkəmli dövlət xadimi Heydər Əliyev dönmədən, qətiyyətlə həyata keçirməsi, cəmiyyətin inkişafı üçün bütün ölkədə genişmiqyaslı islahatlar aparması, cəmiyyəti yeniləşdirməyin, möhkəmləndirməyin təməl prinsiplərini qətiyyətlə həyata keçirməsi, onun keçmiş sovet hakimiyyəti ilə yeni müstəqil dövlətçilik anlayışı arasında möhkəm sədd yaratması, bunun nəticəsində "daha heç kimsədə bir daha geriyə qayıtmağa cürət və cəsarət" qalmaması, Azərbaycanı parçalamaq niyyətində olanların xalqın bütövlüyünün qarşısında geri çəkilməyə məcbur olması açıqlanır: "Çox mürəkkəb ictimai-siyasi şəraitdə çevriliş cəhdləri, separatçılıq meylləri ilə çıxış edən, hərbi müxalifətlə demokratik müxalifəti bir-birindən ayıraraq özgə dəyirmanların daşını fırlatmağa can atanların arxlarını kəsməklə Heydər Əliyev müstəqil hüquqi dövlətin çarxının dünyəvi prinsiplər əsasında ahəngdar işləməsini təmin etməyi bacarmışdır".

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi illəri məsuliyyətli və şərəfli illər kimi, Azərbaycan dövlətçiliyinin çətin və zəruri sınaq mərhələsi kimi qeyd edir, Ali Məclisin Sədri kimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında qəbul etdiyi tarixi qərarların o zamankı Azərbaycan rəhbərliyi üçün «yolverilməz hallar» səviyyəsində anlaşılsa da, xalqımız tərəfindən ölkənin gələcəyinə, müstəqilliyin yaşadılacağına böyük ümidlər kimi qəbul edildiyini, onun müstəqil Azərbaycan dövlətinin rəhbərliyinə vətənpərvər Azərbaycan xalqının arzularının və ümidlərinin dalğasında gəldiyini, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycanı rəsmi və ya qeyri-rəsmi olaraq tanımamışdan çox qabaq Heydər Əliyevi tanıdıqları üçün qısa müddətdə ölkəni də tanımalı olduqlarını, Azərbaycanın qısa müddətdə dünya birliyində öz yerini tuta bildiyini yazır və belə qiymətləndirir: "Bu mənada möhtəşəm Heydər Əliyev abidəsinin Naxçıvan-pyedestalı, Bakı-böyükbaş meydanı, bütövlükdə Azərbaycan isə onun əzəmətli heykəlidir. Heydər Əliyev ölkəmizin bütün hüdudlarını əhatə edən Azərbaycan xəritəsidir. Yaxud da Heydər Əliyev dünya xəritəsində Azərbaycanın nadir kompasıdır. Azərbaycanı tapmaq üçün Heydər Əliyevi tanımaq yetərli idi. Azərbaycançılıq ideologiyası Azərbaycan tarixinə Heydər Əliyevin dövlətçilik təlimi kimi daxil olmuşdur. Azərbaycanın dövlət müstəqilliyinin inkişaf etdirilməsi təliminin əsasları da Heydər Əliyev tərəfindən yaradılmışdır. Azərbaycanda milli birlik və həmrəylik ideyasının həyata keçirilməsi də azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan dili kimi Azərbaycan xalqı anlayışının da ölkəmizdə bərqərar olması müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir. Heydər Əliyevin adı ilə bağlı olan Azərbaycan xalqı anlayışı azərbaycançılıq prinsiplərinin ölkəmizdəki bütün etnik qruplar tərəfindən vahid prinsip kimi qəbul edilməsinə imkan yaradan müdrik bir dövlətçilik təlimidir".

İsa Həbibbəyli Dünya azərbaycanlıları anlayışının da Heydər Əliyevin adı ilə bağlı olduğunu, sovet dövründən mövcud rejimin yaratdığı çətinliklərə baxmayaraq, məhdud şəkildə olsa da, dünya azərbaycanlıları ilə yaradılan əlaqələrini dövlət müstəqilliyimizin ilk illərindən genişləndirdiyini, dünya azərbaycanlılarının birliyinə və həmrəyliyinə doğru böyük addımlar atıldığını bildirir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən Heydər Əliyevin "31 dekabr Dünya azərbaycanlılarının Həmrəylik və Birlik günü haqqında" imzaladığı 16 dekabr 1991-ci il tarixli qərar son yüzillikdə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin varlığını təsdiq edən və onlarla əlaqələrin zəruriliyini dövlət səviyyəsində rəsmiləşdirən ilk mühim qərar kimi xüsusi əhəmiyyətə malik olduğunu yazır: "Bu, dünya azərbaycanlılarının həmrəyliyinin dövlət tərəfindən verilmiş birinci bəyannaməsi idi. "Dünya azərbaycanlılarının Həmrəylik və Birlik günü haqqında"kı qərarın bütövlükdə Azərbaycanda, geniş mənada dünyada soydaşlarımız, həmvətənlərimiz arasında geniş əks-səda doğurduğunu, bu mühüm tarixi əhəmiyyətə malik olan qərarın priambula hissəsində azərbaycançılıq, müstəqillik uğrunda mübarizənin şərəfli və keşməkeşli tarixinin mükəmməl siyasi mənzərəsi" canlandırıldığını, əsas vəzifələrin müəyyən olunduğunu yazır.



Professor Mübariz Yusifov yazır: "Azərbaycançılıq ideyaları ümumilikdə azərbaycançılıq anlayışının özünü formalaşdırır. Azərbaycançılıq ideyaları azərbaycançılıq anlayışı ilə üzvi şəkildə bağlıdır. Yəni bu ideyalar mövcud olmasa, yaranmasa, formalaşmasa, yetkinləşməsə azərbaycançılıq anlayışından danışmaq mümkün deyildir. Başqa sözlə, azərbaycançılıq ideyaları bütövləşir, ümumiləşir və azərbaycançılıq anlayışını yaradır. Azərbaycançılıq anlayışının yaranmasında ümumiləşən azərbaycançılıq ideyalarının bazasını ictimai təfəkkürün mövcudluğu, milli-mənəvi dəyərlər və müstəqil dövlətçilik ənənələri təşkil edir. Azərbaycançılıq anlayışının özü isə cəmiyyət həyatında çox mühüm ictimai, siyasi, ideoloji və hərəkətverici əhəmiyyət daşıyan milli şüur mənasında başa düşülür. Beləliklə, azərbaycançılıq anlayışının daxili məzmununu qısa olaraq belə xarakterizə etmək mümkündür: Azərbaycançılıq ictimai təfəkkürün canlanması ilə yaranan, milli-mənəvi dəyərlər bazasında yetkinləşən və müstəqil dövlətçilik ənənələri əsasında formalaşan milli şüurdur. Bu, o deməkdir ki, ictimai təfəkkürdə milli ideyalar yaranmasa, milli-mənəvi dəyərlər də meydana gələ bilməz. İctimai təfəkkür bazasında yaranan milli-mənəvi dəyərlər isə dövlətçiliklə qorunur, zənginləşir və inkişaf edir. Dövlətçilik olmadan milli ideyalar ancaq lokal səviyyədə qalmaqla məhdudlaşır. İctimai təfəkkür cəmiyyətlə birlikdə yaşadığı üçün həm tarixidir, həm də müasir.

Ulu Öndər Heydər Əliyev öz çıxışları zamanı milli ideyaların formalaşmasında, tarixiliyin və müasirliyin dialektik vəhdət təşkil etdiyini dönə-dönə bəyan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli ənənələrin qorunub saxlanmasında tarixiliyin, milli ideyaların bəşəri ideyalarla qovuşdurulmasında isə müasirliyin əhəmiyyətli rol oynadığını göstərir"

Nəticədə dünya azərbaycanlılarının hər ilin 31 dekabrında yer kürəsinin müxtəlif qitələrində qeyd olunan "Həmrəylik günü həmvətənlərimizin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi uğrunda səylərinin birləşdirilməsinə, ölkəmizin reallıqlarının beynəlxalq aləmdə yayılmasına geniş meydan açan dövlət əhəmiyyətli proqram statusu" qazandığını qeyd edir. Ölkəmizdə 2001, 2006 və 2012-ci illərdə dünya azərbaycanlılarının üç dəfə qurultaylarının keçirilməsi də möhtəşəm siyasi-tarixi hadisələri bilir. Heydər Əliyevin "dünya azərbaycanlılarının bir vətəni var, bu - Azərbaycandır" kəlamının müasir dövrün azərbaycançılıq təliminin siyasi-ideoloji əsasını təşkil etdiyini qeyd edir. Dünya azərbaycanlılarının Birinci qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tarixi nitqini "azərbaycançılıq məfkurəsinin siyasi manifesti" adlandırır: "Heydər Əliyevin azərbaycançılıq təlimi dünya azərbaycanlılarını tarixi vətən və vahid ideologiya ətrafında birləşdirir. Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli fərmanı ilə xarici ölkələrdə yaşayan "Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi"ni yaratması dünya azərbaycanlılarının diaspora fəaliyyətinin təşkilinin milli dövlət siyasəti səviyyəsinə qaldırıldığını nümayiş etdirir. Azərbaycan diasporasının formalaşması və inkişafı sahəsində qazanılan nailiyyətlər məhz həyata keçirilən həmin siyasətin bəhrələridir. Azərbaycanın xarici siyasətinin uğurla həyata keçirilməsində dünya ölkələrindəki diaspora təşkilatlarımızın səmərəli fəaliyyəti atılmış addımların uzaqgörənliyini bir daha təsdiq edir. Heydər Əliyevin müdrik siyasəti azərbaycançılığı ölkə sərhədlərindən dünya birliyi səviyyəsinə çatdırmışdır. Azərbaycançılıq dünyada yaşayan bütün azərbaycanlıların birliyinin və həmrəyliyinin ideologiyasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkə miqyasında və dünya azərbaycanlıları müstəvisində azərbaycançılığın ən uca zirvələrini fəth etmişdir. Sözün obrazlı mənasında Heydər Əliyev dünyada azərbaycançılığın rəmzinə çevrilmişdir".

Bu gün Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təliminin, azərbaycançılıq ideologiyasının "dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə" ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirildiyini, "möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan" qurulduğunu, İlham Əliyevin "çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çox aspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası" formalaşdığını bildirir. Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulmasının İlham Əliyev siyasətinin təməl prinsipi olduğunu, onun siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal işlərdə tamamlandığını söyləyir və fikrini davam etdirərək bildirir ki, "Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir.

*(Davamı var)*